# Şuşa mədəniyyətinin inciləri – Üzeyir bəy Hacıbəyli




***"Şuşa ili" münasibətilə Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən "Şuşa mədəniyyətinin inciləri" layihəsinin "Şuşanın simaları" bölməsi üzrə növbəti təqdimatı müsəlman Şərqində ilk operanın banisi, dünya şöhrətli bəstəkar, görkəmli musiqişünas alim, yazıçı, publisist, ictimai xadim, Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Üzeyir bəy Hacıbəyliyə (1885-1948) həsr olunub.***

Azərbaycan mədəniyyəti tarixində misilsiz xidmətləri olan Üzeyir bəyin ana yurdu – musiqi-sənət beşiyi Şuşa şəhəridir. Dahi musiqiçinin uşaqlığı qədim Qarabağımızın tacı olan Şuşada keçib. Üzeyir dühasının qaynaqları da qarlı zirvələrin, dibi görünməz uçurumların, dərin dərələrin dövrələdiyi, sərin səhər nəsimlərinin oxşayıb tumarladığı, bulaqları bal dadan Şuşadır!

Üzeyir bəyin atası Əbdülhüseyn Molla Məhəmməd oğlu Hacıbəyov öz dövrünün savadlı, ziyalı şəxslərindən olub. O, XIX əsrin tanınmış dövlət xadimi və şair, Qarabağ xanlarının varisi Xurşudbanu Natəvanın mirzəsi olmuşdu. Anası Şirinbəyim xanım isə Qarabağda məşhur Əliverdibəyovlar nəslindən idi. Bəstəkarın dayısı Ağalar bəy Əliverdibəyov xalq musiqisinin gözəl bilicisi və Üzeyir bəyin ilk musiqi müəllimi olub. Üzeyir bəy Hacıbəylinin, eləcə də onun qardaşlarının musiqi istedadı Azərbaycanın ən qədim və gözəl guşələrindən olan Qarabağın, Şuşa şəhərinin zəngin musiqili mühitində formalaşıb.

Ulu öndər Heydər Əliyev dahi bəstəkarın yaradıcılığını, xalqımız qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək deyib: "Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur". Məhz Prezident Heydər Əliyevin 1995-ci ildə – bəstəkarın 110 illik yubileyi münasibətilə imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü (Üzeyir Musiqi Günü) kimi qeyd olunur.

1985-ci ildə Üzeyir bəy Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə, həmçinin dahi musiqiçinin şəhərdəki ev-muzeyi 1992-ci ildə, Birinci Qarabağ müharibəsində ermənilər tərəfindən Şuşa işğal edildikdən sonra vandalizmə məruz qalaraq tamamilə dağıdılıb.

2020-ci ilin 44 günlük Vətən müharibəsində Qarabağımız və onun tacı Şuşa işğaldan azad edildikdən sonra Üzeyir bəyin doğma yurduna mədəniyyətimizin də qayıdışı başlanıb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bəstəkarın yeni heykəli hazırlanıb. Dövlət başçısının iştirakı ilə 2021-ci il avqustun 29-da Şuşa şəhərində abidənin açılışı keçirilib.

2021-ci il sentyabrın 18-də uzun illərdən sonra ilk dəfə Milli Musiqi Günü çərçivəsində Şuşada görkəmli bəstəkara həsr olunmuş Üzeyir Hacıbəyli XIII Beynəlxalq Musiqi Festivalının konserti gerçəkləşdi.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 30 mart.- S.10.